Təhsil millətin gələcəyidir!

# TƏHSİL PROBLEMLƏRİ

Qəzet 2002-ci ildən nəşr edilir

№ 43-44 (1101-1102) 08-15 iyun 2016-cı il | Təhsil Problemləri İnstitutunun elmi-metodik nəşri | Qiyməti 60 qəpik

## Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə silsilə tədbirlər

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Təhsil Nazirliyi sistemindəki internat məktəblərində silsilə tədbirlər keçirilib.

**Heydər Əliyev Fondu** və **Nərimanov Rayon İcra Hakimiyyəti** tərəfindən Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində tədbir təşkil olunub. Tədbirdə ***Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Milli Məclisin deputatı Adil Əliyev, Təhsil Nazirliyinin De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin rəisi Məlahət Hacıyeva***, müəllimlər və sağlamlıq imkanları məhdud uşaqlar iştirak ediblər.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində keçirilən digər tədbirdə isə ***Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kerol Meri Krofts*** və səfirliyin əməkdaşları şagirdlərlə görüşüblər.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1 nömrəli tam orta internat məktəbində "Veysəloğlu" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təşkil edilmiş bayram tədbiri də maraqla qarşılanıb.

**Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 nömrəli Respublika xüsusi internat məktəbində** təşkil olunmuş tədbirdən sonra şagirdlərin Zirə Mədəniyyət Mərkəzi və Eko Parka səfərləri təşkil olunub.

**Sumqayıt şəhər Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi tipli internat məktəbində** şagirdlər asfalt üzərində və malbertlərdə rəsmlər çəkib, əl işləri nümayiş olunub və futbol yarışı keçirilib. Tədbirə Təhsil Nazirliyi, Ailə, Qadın və




Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Sumqayıt Şəhər İcra Hakimiyyəti, Sumqayıt Şəhər Təhsil Şöbəsi, Sumqayıt Şəhər Səhiyyə Şöbəsi, Sumqayıt Şəhər Mədəniyyət və Turizm Şöbəsi və YAP Sumqayıt Şəhər Təşkilatının təmsilçiləri qatılıblar.

Həmçinin, Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə iyunun 2-də Bakı **Fransız Liseyi Təhsil Kompleksində** keçirilən tədbirdə 10 nömrəli Sanatoriya tipli internat məktəbin şagirdləri iştirak ediblər. Keçirilən tədbirlərdə şən mahnılar ifa edilib, şagirdlərin ifasında rəqs, musiqi nömrələri nümayiş olunub, şeirlər səsləndirilib və uşaqlara müxtəlif hədiyyələr verilib.

## "Multikulturalizm ili" çərçivəsində "Yaponiya günü" keçirilib



**46 nömrəli Məktəbdənkənar Tərbiyə İşi Mərkəzində** təşkil olunmuş tədbirdə ***Yaponiyanın Azərbaycandakı səfirliyinin birinci katibi Ko Obata***, Təhsil Nazirliyi Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsi Uşaq və gənclərin yaradıcılığı sektorunun müdiri Ayla Həsənova, müəllimlər və dərnək üzvləri iştirak ediblər.

Yaponiyanın Azərbaycandakı səfirliyinin birinci katibi Ko Obata öz ölkəsinin təbiəti, mədəniyyəti, incəsənəti, təhsil sistemi, adət-ənənəsi, dili, mətbəxi, haqqında ətraflı məlumat verib. Ko Obata uşaqlara yapon dilində "salam" və "təşəkkür edirəm" sözlərini, bəzi yapon heroqliflərinin açmasını öyrədib.

Qeyd olunub ki, əsrlər boyu Azərbaycan müxtəlif millətlərin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı ölkə kimi tanınıb. Ölkədə tolerantlıq prinsiplərinə əsaslanan siyasət aparılır. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliği məqsədilə 2016-cı il "Multikulturalizm ili" elan edilib.

Tədbirdə Yaponiyada keçirilən 23-cü Beynəlxalq Rəsm Müsabiqəsində qalib gələn 46 nömrəli Məktəbdənkənar Tərbiyə İşi Mərkəzi "Günəş" art studiyasının üzvü ***Aytac Quliyeva*** və Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvü ***Aişə Maarifova*** diplomla təltif olunublar. Sonra Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi rəqs qrupunun çıxışı izlənilib.

## Müsabiqə əsasında I sinfə şagird qəbulu prosesi başa çatıb

Bakı şəhəri üzrə müsabiqə əsasında lisey, gimnaziya və digər ümumi təhsil müəssisələrinə I sinfə şagird qəbulu prosesi yekunlaşıb.

İstedadlı uşaqların daha aşağı yaşlarda müəyyən olunması və onlar üçün innovativ təlim prosesinin təmin edilməsi məqsədilə Bakı şəhəri üzrə 15 ümumi təhsil müəssisəsində I sinfə qəbul müsabiqə əsasında təşkil olunub.

Qeyd edək ki, 2016-2017-ci tədris ili üzrə Bakı şəhərində I sinfə şagird qəbulu müsabiqə əsasında aparılan lisey, gimnaziya və digər ümumi təhsil müəssisələrinə elektron qeydiyyat **www.mektebeqebul.edu.az** saytı vasitəsilə martın 1-dən aprelin 10-dək davam edib. Həmin ümumtəhsil müəssisələrinə 4449 nəfər müraciət edib.

15 aprel-15 may 2016-cı il tarixlərində bu təhsil müəssisələrinin daxili nizamnamələrinə əsasən təşkil edilmiş müsabiqələr çərçivəsində uşaqların qiymətləndirilməsi həyata keçirilib. Uşaqların dünyagörüşü, riyazi-məntiqi təfəkkürü, psixoloji hazırlığı, yaradıcılıq qabiliyyəti, rabitəli nitqqurma bacarığı qiymətləndirilib və ümumilikdə 2350 şagird I sinfə qəbul edilib. Onlardan 1144 nəfər Azərbaycan bölməsinə, 1206 nəfər isə rus bölməsinə qəbul olunub.

Müsabiqə çərçivəsində ən yüksək rəqabət 23 nömrəli tam orta məktəb üzrə olub. Bu məktəb üzrə I yerə 3 nəfərdən daha artıq müraciət edilib. Bakı Avropa Liseyi,



287 nömrəli Zəkalar Liseyi, İ.Əfəndiyev adına Elitar Gimnaziya, Bakı Slavyan Universitenin nəzdində Məktəb-Lisey Kompleksi və "Ankara məktəbi" məktəb-liseyində də yüksək rəqabət qeydə alınıb.

***"Təhsil problemləri"***